| |
|---|
| **FONETİKA**: Danışıq səsləri. Saitlərin növləri: qalın, incə; açıq, qapalı; dodaqlanan, dodaqlanmayan. Samitlərin növləri: kar və cingiltili. Sözün səs və hərf tərkibi. Bir sıra sözlərdə “o” saitinin [a] kimi tələffüz edilməsi. Söz sonunda cingiltili samitlərin ( “b”, “c”, “d”, “g” ) tələffüzü. |
| “K” və “Q” samitlərinin yazılışı və deyilişi. Sözlərin sonunda “k-y” və “q-ğ” əvəzlənməsi. Qoşa samitlə bitən təkhecalı sözlər: eynicinsli qoşa samitlə bitən sözlər, müxtəlifcinsli qoşa samitlə bitən sözlər. Söz ortasında yanaşı gələn ***tt, kk, pp, qq*** samitlərinin tələffüzü. Ahəng qanunu. Heca. Sözün yazılışı və deyilişinə görə təhlili (fonetik təhlil).<br>**MƏTN ÜZƏRİNDƏ İŞ. Buraxılış imtahanında istifadə olunacaq mətnlər haqqında məlumat. Təlim üsulları.** |
| **LEKSİKA**: Sözün leksik və qrammatik mənası. Əsas nitq hissələrinin həm leksik, həm də qrammatik mənaya malik olması, köməkçi nitq hissələrinin isə ancaq qrammatik mənaya malik olması. Sözün ilkin - həqiqi mənası. Sözün məcazi mənası. Çoxmənalı sözlər. |
| **Omonimlər**. Omonim sözlərlə çoxmənalı sözlərin müqayisəsi. **Sinonimlər. Antonimlər.** Frazeoloji birləşmələr (sabit söz birləşmələri). Terminlər (alınma sözlər). Sözün leksik təhlili.<br>**MƏTN ÜZƏRİNDƏ İŞ. Mətnin hissələri: giriş, əsas, nəticə hissə.** |
| **ÜSLUBİYYAT**. Üslubiyyat və üslub haqqında ümumi məlumat. Azərbaycan ədəbi dilinin funksional üslubları. **Bədii üslubun xüsusiyyətləri.** Bədii üslubun obrazlı nitq forması olması. Bədii üslubun təzahür formaları (şeir dili, nəsr dili, dram dili). Sözün informativ və poetik funksiyaları. Bədii söz. Bədii təsvir və ifadə vasitələri. Ellipsis. **Elmi üslub.** Elmi üslubun xüsusiyyətləri: izah etmək, şərh etmək, nəticə çıxarmaq. Elmi üslubda sözlərin terminləşməsi (Sözün terminoloji funksiyası). Sözün həqiqi mənada işlədilməsinin elmi üslubun xüsusiyyətlərdən biri olması. |